**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi kitabxanasında gənc rəssam Almaz İdrisovanın fərdi sərgisi açılıb. Sərgi 28 May Azərbaycanın Müstəqillik Gününə həsr olunub.**

# Gənc rəssamın əlvan boyaları

Sərgidə rəssamın "Xocalıya ədalət!" kampaniyası çərçivəsində hazırladığı "Kölgədə qalan xəyallar" adlı pannosu təqdim olunur. Bu panno İstanbul, Ankara, Tbilisi və başqa şəhərlərdə keçirilən beynəlxalq sərgilərdə, eləcə də respublika müsabiqələrində nümayiş olunub. Rəssamın digər rəsmi "Şəhid Samir Kaçayevin xatirəsinə" adlanır. Sərginin eksponatlarına "Melodiya", "İpək yolu", "Payız qızı", "Yuxu", "Atəş və su", "Frida Kalo və mən" (Frida Kalo meksikalı rəssamdır) adlı rəsmlər də daxil edilib.

Almaz xanımın sərgilənən rəsmləri kətan üzərində yağlı boya ilə işlənilib. İbtidai nümunələrinin tarixi XIII əsrə gedib çıxan bu texniki üslub təravətini hələm-hələm itirmir. Əlbəttə, müəyyən kombinələr də edilir və bu rəsmləri daha da cəlbedici göstərir. Almaz İdrisova xanımın işləri də bu baxımdam istisna deyil.

Gənc rəssam Bakıdakı 246 nömrəli tam orta məktəb-liseyi bitirib. 2016-cı ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının qrafika fakültəsinə qəbul olunub. Hazırda təsviri sənət və sənətşünaslıq fakültəsinin sənətşünaslıq ixtisasının magistratura pilləsində təhsil alır. Gənc olsa da, indi artıq onun tələbələri də var. Rəssam həm respublikada, həm də ölkə hüdudlarından kənarda 100-ə yaxın sərgi və müsabiqələrdə iştirak edib.

Onu da qeyd edək ki, Almaz İdrisova ötən həftə Azərbaycanda Qırğızıstan Mədəniyyəti Günləri çərçivəsində qardaş ölkənin səfirliyinin, YAP Yasamal Rayon Təşkilatının və Beynəlxalq Qalereyanın birgə dəstəyi ilə təşkil olunan xeyriyyə sərgisində də fəal iştirak edib.

Almaz xanım kitabxanada açılan sərgiyə gələnlərin yetərli qədər olmasına sevinir. Bu, ölkəmizdə incəsənətə marağın daha da artmasının, gənclərə, onların yaradıcılığına diqqət göstərilməsinin nümunəsi kimi fərəh doğurur.



Sərgi ilə tanışlığımız zamanı Almaz İdrisova bizə bir sirr də açaraq dedi:

– Bacım Mariya da rəssamdır. Birlikdə təhsil alırıq. Mariya milli kompozisiyaları işləməyi sevir. Mənsə, gördüyünüz kimi, ən çox portret janrına üstünlük verirəm. Əsasən yağlı boya ilə, qismən də akrillə işləyirəm. Biz eyni zamanda Bakının 9-cu mikrorayonundakı "Almart studio" adlanan emalatxanamızda 100-ə qədər yeniyetməyə təcrübəmizi öyrədirik. İstedad və həvəsləri onların da bu sənətə ömürlük bağlanacaqlarına inam yaradır.

Almaz xanımın kitabxanada fərdi sərgisi bir ay davam edəcək. Sonra isə növbə bacısı Mariya İdrisovanın olacaq. Gedib baxmağa dəyər.

***Ə.DOSTƏLİ***
***XQ***